

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

Qəzet 1921-ci ildən çıxır

# ŞƏRQ qapısı

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 115 (23.277)

25 iyun 2019-cu il, çərşənbə axşamı

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2019-cu il 22 iyun tarixli Sərəncamı ilə dövlət qulluğunda səmərəli fəaliyyətlərinə görə bir qrup şəxs təltif edilmişdir. Təltif olunanlar arasında Naxçıvan Muxtar Respublikasında fəaliyyət göstərən dövlət qulluqçuları da vardır.

**Məmmədov Fəxrəddin Rza oğlu**

"Tərəqqi" medalı ilə,

**Abdullayev Azər Hüseyn oğlu**
**Abtalıbov Rəhim Talıb oğlu**
**Aslanov İbrahim Qoçəli oğlu**
**Həsənov Hüseynağa İbrahim oğlu**
**Hüseynli Ülvi Mötəbər oğlu**
**Hüseynov Vəfadar Hüseyn oğlu**
**Qəribli İsmayıl Cavanşir oğlu**
**Paşayev Cəlal İsa oğlu**
**Rəsulov Ramiz Məhərrəm oğlu**
**Seyidov Məcid Mirəli oğlu**
**Şahverdiyev Vahid Hüseynqulu oğlu**

"Dövlət qulluğunda fərqlənməyə görə" medalı ilə təltif edilmişlər.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2019-cu il 24 iyun tarixli Sərəncamı ilə bir qrup hərbi qulluqçuya ali hərbi rütbələr verilmişdir. Ali hərbi rütbə alanlar arasında Heydər Əliyev adına Hərbi Liseyin rəisi də vardır.

**polkovnik Məhəmməd Kərim oğlu Həsənova**

"general-mayor" hərbi rütbəsi verilmişdir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2019-cu il 24 iyun tarixli Sərəncamı ilə Azərbaycan Respublikasının müstəqilliyinin, ərazi bütövlüyünün qorunub saxlanılmasında xüsusi xidmətlərinə, öz xidməti vəzifələrini və hərbi hissənin qarşısında qoyulmuş tapşırıqları yerinə yetirərkən fərqləndiklərinə görə Azərbaycan Respublikası Müdafiə Nazirliyinin hərbi qulluqçuları təltif edilmişlər. Təltif olunanlar arasında Naxçıvan Əlahiddə Ümumqoşun Ordunun hərbi qulluqçuları da vardır.

**Ələkbərov Pərviz Ağasalam oğlu**
**– polkovnik**

"Vətən uğrunda" medalı ilə,

**Cumayev Akif Kazım oğlu**
**– polkovnik-leytenant**

**Həziyev Samir Mətləb oğlu**
**– polkovnik-leytenant**

"İgidliyə görə" medalı ilə,

**Gülməmmədov Mehman Fərman oğlu**
**– polkovnik**

**Ağayev Bəhruz Allahverdi oğlu**
**– polkovnik-leytenant**

"Hərbi xidmətlərə görə" medalı ilə təltif edilmişlər.

## Gənc istedadların xüsusi təqaüdə layiq görülməsi haqqında

## Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Sərəncamı

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 5-ci maddəsinin II hissəsinin 22-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Xüsusi istedadı olan aşağıdakı şəxslərin adları Naxçıvan Muxtar Respublikası Gənc İstedadlarının "Qızıl kitabı"na yazılsın və onlar Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin xüsusi aylıq təqaüdünə layiq görülsünlər:

Hüseynli Rafiq Anar oğlu - Naxçıvan şəhər 15 nömrəli tam orta məktəbin şagirdi, idman sahəsi üzrə

Bağırov Siyavuş Mehdi oğlu - Naxçıvan şəhər 8 nömrəli tam orta məktəbin şagirdi, təhsil sahəsi üzrə

Əliyeva Duyqu Cabir qızı - Culfa şəhər 2 nömrəli tam orta məktəbin şagirdi, incəsənət sahəsi üzrə

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif TALIBOV**

*Naxçıvan şəhəri, 24 iyun 2019-cu il*

## Naxçıvanın səhiyyə turizmi imkanları yüksək qiymətləndirilib

*18-20 iyun tarixlərdə İranın Ərdəbil şəhərində İqtisadi Əməkdaşlıq Təşkilatının "II Səhiyyə Turizmi Konfransı və Sərgisi" keçirilib.*




Təşkilata üzv 10 ölkədən, o cümlədən üzv olmayan Oman, Rusiya və İraqdan olan nümayəndələr, habelə İrandakı bir sıra diplomatik nümayəndəliklərin və xarici qeyri-hökumət təşkilatlarının təmsilçilərinin təmsil olunduğu tədbirdə Azərbaycan Respublikasının Təbrizdəki Baş konsulu Əliyənnağı Hüseynov da iştirak etmişdir.

İran İslam Respublikasının Ticarət, Sənaye, Mədən və Kənd Təsərrüfatı Palatası sədrinin beynəlxalq məsələlər üzrə müavini, konfransın icraçı katibi Məhəmmədrza Kərbasi tədbirin məqsədi və əhəmiyyəti barədə məlumat vermiş, İqtisadi Əməkdaşlıq Təşkilatına üzv ölkələr arasında səhiyyə turizmi sahəsində əməkdaşlığın genişləndirilməsi imkanlarından danışmışdır.

Baş konsul Əliyənnağı Hüseynov Ərdəbil valisi, şəhər bələdiyyəsinin sədri, Ticarət, Sənaye, Mədən və Kənd Təsərrüfatı Palatasının rəhbəri, İranın Xarici İşlər Nazirliyinin Ərdəbil vilayətindəki nümayəndəliyinin rəhbəri ilə görüşmüş, qarşılıqlı maraqdoğuran bir sıra məsələlər müzakirə edilmişdir. Baş konsul ölkəmizdə, eləcə də onun Naxçıvan Muxtar Respublikasında səhiyyə turizmi sahəsində təbii resursların və geniş imkanların mövcud olduğunu bildirmiş, Duzdağ Fizioterapiya Mərkəzinin bu baxımdan əhəmiyyətini vurğulamışdır.

Sərgidə Naxçıvan Muxtar Respublikasının turizm bölgələri və mineral sularına dair təbliğat materialları nümayiş etdirilmiş və sərgi iştirakçılarına paylanmışdır.

**"Şərq qapısı"**

## Beynəlxalq Əmək Təşkilatının 100 illik yubiley tədbirində Naxçıvan təcrübəsi tanıdılıb

*10-21 iyun tarixlərdə İsveçrənin Cenevrə şəhərində Beynəlxalq Əmək Təşkilatının 100 illik yubileyi qeyd olunmuş, Beynəlxalq Əmək Konfransının 108-ci sessiyası keçirilmişdir. Naxçıvan Muxtar Respublikası Sahibkarlar Konfederasiyasının sədri Vüqar Abbasov Azərbaycan nümayəndə heyətinin tərkibində sessiyada iştirak etmişdir.*



Dünya üzrə layiqli əmək şəraitinin yaradılması, insanların sosial müdafiəsi və aktiv məşğulluq proqramlarının icrası ilə bağlı aparılan müzakirələrdə Azərbaycanın və onun Naxçıvan Muxtar Respublikasının əldə etdiyi müsbət nəticələr maraqla qarşılanmışdır. Xüsusilə Beynəlxalq Əmək Təşkilatının çağırışlarına fəal olaraq sosial tərəfdaşlıq edən Azərbaycanda innovativ iqtisadiyyatın yaradılması, əmək məhsuldarlığının yüksəldilməsi və sosial rifahın yaxşılaşması müsbət qiymətləndirilmişdir. Qeyd olunmuşdur ki, müzakirə olunan məsələlər Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə uğurla davam etdirilən dövlət siyasətinin strateji məqsədidir. Həyata keçirilən tədbirlərin nəticəsində son 15 ildə Azərbaycanda ümumi daxili məhsul, sənaye istehsalı, orta aylıq əməkhaqqı dəfələrlə artıb, işsizlik və yoxsulluq səviyyəsi minimum həddə enib. Təkcə bu il əməkhaqqı və pensiyaların 40, sosial müavinətlərin və təqaüdlərin orta hesabla 100 faiz artması insanların rifahına ciddi dəstək olub. Bildirilib ki, bu ilin may ayında Beynəlxalq Sosial Təminat Assosiasiyasının Avropa Sosial Təminat Forumuna ev sahibliyi edən Azərbaycanın 4 sosial layihəsi yaxşı təcrübə nümunəsi kimi bu təşkilatın xüsusi mükafatına layiq görülüb.

Yubiley tədbirində Azərbaycanın Naxçıvan Muxtar Respublikasının davamlı məşğulluq, layiqli əmək şəraitinin yaradılması və insanların sosial müdafiəsi sahəsində qazandığı uğurlar geniş şəkildə tanıdılmışdır. Muxtar respublikada qeyd olunan sahələr üzrə əldə edilən nailiyyətlərin əhəmiyyəti vurğulanmış, xüsusilə sosial ədalət və sosial dialoqa nail olmaq üçün birgə tədbirlərin müəyyən edilməsində təcrübə mübadiləsinin və geniş əməkdaşlığın vacibliyi diqqətə çatdırılmışdır.

**"Şərq qapısı"**

## Operativ vergi nəzarəti tədbirləri görülür

***May ayında Naxçıvan Muxtar Respublikası Vergilər Nazirliyi və onun yerli vergi orqanları tərəfindən muxtar respublika ərazisində fəaliyyət göstərən ticarət, iaşə, xidmət və digər sahələri əhatə edən 19 vergiödəyicisində qanunvericiliyin pozulması faktları aşkar edilib.***

Belə ki, 1 vergiödəyicisi tərəfindən xarici valyuta məbləğinin ödəniş vasitəsi kimi qəbul edilməsi, 11 vergiödəyicisinin "Fərqlənmə nişanı" olmadan avtomobil nəqliyyatı ilə sərnişin daşıması, 1 işçinin əmək müqaviləsi bağlanmadan işə cəlb edilməsi, 2 vergiödəyicisində "Sadələşdirilmiş vergi üzrə sabit vergi məbləğinin ödənilməsi haqqında qəbz"in və 2 vergiödəyicisində isə malların Vergi Məcəlləsi ilə tənzimlənən elektron qaimə-faktura əsasında alınmaması müəyyən edilərək müvafiq tədbirlər görülüb.



Qeyd olunan dövrdə Vergilər Nazirliyi tərəfindən müvafiq icra hakimiyyəti orqanları ilə birgə tədbirlər planına əsasən işəgötürən tərəfindən fiziki şəxslərin hər hansı işlərin yerinə yetirilməsinə cəlb edilməsinin Əmək Məcəlləsində nəzərdə tutulmuş qaydada əmək müqaviləsi bağlanmaqla rəsmiləşdirilməsi, əməkhaqlarının real göstərilməsi ilə bağlı tikinti, ticarət, iaşə və digər xidmət obyektlərində araşdırmaların aparılması mütəmadi olaraq davam etdirilib.

**Naxçıvan Muxtar Respublikası Vergilər Nazirliyinin mətbuat xidməti**

## 8 istehsal sahəsinin yaradılması başa çatdırılıb

Muxtar respublika iqtisadiyyatının davamlı inkişafının təmin edilməsi, yerli resurs və xammalla işləyən, ixrac qabiliyyətli məhsullar istehsal edən sahələrin yaradılması istiqamətində tədbirlər may ayında da davam etdirilmişdir. Bu dövrdə heyvandarlıq, istixana təsərrüfatları, soyuducu anbar olmaqla, 8 istehsal sahəsinin yaradılması başa çatdırılmışdır.

Ərzaq məhsullarının istehsalı, soyuducu anbar, balın emalı, ətlik-südlük istiqamətində heyvandarlıq təsərrüfatının, meyvə-tərəvəz məhsullarının, yabanı növ bitkilərin tədarükü və konservləşdirilməsi sahələrinin yaradılması məqsədilə Sahibkarlığın İnkişafı Fondu tərəfindən may ayında heyvandarlıq, arıçılıq, quşçuluq təsərrüfatlarının və soyuducu anbar olmaqla, 7 yeni layihənin maliyyələşdirilməsinə 104 min 200 manat, eləcə də 11 ailə təsərrüfatına 129 min 800 manat həcmində güzəştli şərtlərlə dövlət maliyyə dəstəyi göstərilmişdir.



Ərzaq məhsullarının manеəsiz şəkildə xarici bazarlara çıxarılması məqsədilə "İstehlak Mallarının Ekspertizası Mərkəzi" Məhdud Məsuliyyətli Cəmiyyətinin Mərkəzi Qida Sınaq Laboratoriyası tərəfindən 8 halda mənşə sertifikatı verilmişdir. Ərzaq mallarının keyfiyyətinə nəzarət tədbirləri davam etdirilmiş, 176 halda mal nümunələrində laboratoriya təhlilləri aparılarkən 174 nümunənin keyfiyyət göstəriciləri qüvvədə olan normativ-texniki sənədlərin tələblərinə cavab verdiyi, 2 halda mal nümunəsinin keyfiyyət göstəricilərinin aşağı olduğu müəyyən edilmişdir.

Bakı şəhərində "Məhsul ixrac edən şirkətlərdə keyfiyyətin idarə edilməsi" mövzusunda keçirilmiş seminarda "F.H.Oğulları" MMC-nin, "Sumqala Tikinti Təchizat" MMC-nin və "Ordubad Qənnadı Məmulatları" MMC-nin nümayəndələrinin, həmçinin 4 beynəlxalq tədbirdə 10 sahibkarlıq subyektinin iştirakı təmin edilmişdir.

**Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyinin mətbuat xidməti**

# Hərbi qulluqçular lazımi sosial-məişət şəraiti ilə təmin olunur



***Güclü ordu müstəqilliyimizin, ərazi bütövlüyümüzün, sülh və əmin-amanlığın əsas təminatçısıdır. Bu gün müasir və qüdrətli milli ordusu formalaşan ölkəmizin ayrılmaz tərkib hissəsi Naxçıvan Muxtar Respublikasında da ordu quruculuğu tədbirləri uğurla davam etdirilir. Əlahiddə Ümumqoşun Ordunun birləşmələrinin maddi-texniki bazası gücləndirilir.***

Muxtar respublikada yerləşən ordu, birləşmə və hissələrdə xidmət edən hərbi qulluqçular lazımi sosial-məişət şəraiti ilə təmin olunur və onların mənzil şəraitlərinin yaxşılaşdırılması diqqət mərkəzində saxlanılır. Bu məqsədlə hər il yeni xidməti yaşayış binaları tikilir, zabit-gizir ailələrinə mənzillər verilir. Göstərilən diqqət və qayğı hərbi qulluqçuların nümunəvi xidmət etməsinə şərait yaradır.

İyunun 11-də Kəngərli rayonunun Qıvraq qəsəbəsindəki hərbi hissədə zabit-gizir ailələri üçün yeni yaşayış binasının istifadəyə verilməsi sadalananları bir daha təsdiq edir. 5 mərtəbəli, 44 mənzilli yaşayış binasında iki, üç və dördotaqlı mənzillərdə bütün kommunal-məişət şəraiti yaradılıb, fərdi istilik sistemi qurulub. Mənzillər mebel dəstləri və məişət əşyaları ilə tam təmin olunub. Bununla yanaşı, binanın həyəti də abadlaşdırılıb, istirahət köşkü istifadəyə verilib.

Biz də 26 İyun – Azərbaycan Respublikası Silahlı Qüvvələri Günü ərəfəsində yeni evlə təmin olunan hərbi qulluqçuların sevincini bölüşmək üçün Qıvraq qəsəbəsinə üz tutduq.

İlk olaraq mənzillə təmin olunmuş hərbi qulluqçulardan əslən Qəbələ rayonundan olan kapitan Qeyrət Abdullayevin qonağı olduq. Söhbət zamanı evin xanımı Vüsalə Abdullayeva yeni evlərinin ilk qonağının biz olduğumuzu bildirdi. O dedi ki, artıq 8 ildir, Naxçıvanda yaşayır və bir qız övladı var. Ötən illərdə yoldaşının muxtar respublikamızın fərqli bölgələrində xidmət etməsinə baxmayaraq, hərbçi ailəsi olaraq onlara daim qayğı göstərilib, sosial-məişət şəraiti daim diqqət mərkəzində saxlanılıb.

Vüsalə xanım onu da deyir ki, düzdür, harada yaşamağımızdan asılı olmayaraq, yoldaşımın işi ilə əlaqədar günlərlə, həftələrlə evinə gələ bilməməsinə görə hər dəfə nigarançılıq keçiririk. Buna baxmayaraq, evimizdə gecələr rahat yatırıq. Çünki bilirik ki, sərhədlərimiz etibarlı şəkildə qorunur. Kəngərli rayonunda istər təhsil, istərsə də səhiyyə müasir formada qurulub, bütün bunlar bizim firavan yaşamağımıza şərait yaradır. Yaşadığımız bölgənin sakinləri o qədər səmimi və mehribandırlar ki, mən özümü doğma rayonumdakı kimi hiss edirəm. Bura mənim üçün o qədər əzizdir ki, sanki burada doğulub, böyümüşəm.

Kapitan Qeyrət Abdullayev isə söhbət zamanı bildirdi: – Mən muxtar respublikada xidmət etdiyim müddətdə hərbi qulluqçuların məişət şəraitinin daim diqqət mərkəzində olduğunu görmüşəm. Bu gün Əlahiddə Ümumqoşun Ordunun hərbi hissələrində yeni əsgər yataqxanalarının, tibb məntəqələrinin, təlim-tədris mərkəzlərinin, hərbi şəhərciklərdə yeni yaşayış binalarının tikilməsi və məişət avadanlıqları ilə təchiz olunması buna bariz nümunədir. Mən və mənim





kimi burada xidmət edən hərbi qulluqçular öz ailələrinin məişət şəraitindən, övladlarının təhsilindən, tibbi və sosial xidmətlərdən razılıq edirlər. Bu da bütün hərbçilərin məsuliyyətini daha da artırır. Söz veririk ki, göstərilən diqqət və qayğını öz nümunəvi xidmətimizlə doğruldacağıq.

Söhbət zamanı ailənin qız övladının sevincdən evdə dəcəllik etməsi və bizi otaqlarla tanış etmək istəyi də gözümüzdən yayınmadı. Bu sevincə biz də qoşulub onunla birgə ailənin əlverişli mənzil şəraiti ilə tanış olduq.

Cəbrayıl rayonundan olan Şəmmədovlar ailəsi isə 3 ildir ki, Naxçıvanda yaşayır. Onlar Şahbuz rayonundan sonra xidməti zərurətlə əlaqədar Kəngərli rayonuna köçürülüblər. Burada xidməti mənzillə təmin olunublar. Evin xanımı Ülviyyə Şəmmədovanın dedikləri:

– Hərbçi ailəsi olmaq mənim üçün izah edə bilməyəcəyim bir xoşbəxtlikdir. Çünki bu çətin, çətin olduğu qədər də şərəfli yolun yolçularından biriyəm. Bu məsuliyyətli adı daim layiqincə daşımağa çalışıram. İki övladım var, burada bizim yaxşı yaşamağımız üçün hər cür şərait yaradılıb. Məktəbimiz də, uşaq bağçası da müasir səviyyədədir.

Söhbətimizə qoşulan kapitan Loğman Şəmmədov isə qeyd etdi ki, dövlətimizin ərazi bütövlüyünü qoruyan hərbçi ailələri üçün yaradılan şərait, zabit-gizir ailələrinin mənzil-məişət şəraitinin yaxşılaşdırılması dövlətimizin öz ordusuna, onun zabitlərinə və ailələrinə göstərdiyi qayğının daha bir ifadəsi, dövlət-xalq-ordu birliyinin nəticəsidir. Vətənə ləyaqətlə xidmət edən əsgər və zabitlər daim diqqətdə saxlanılır. Bütün bunlar hər birimizdə qürur hissləri ilə bərabər, əminlik də yaradır.

Bu gün hərbçi ailələr ilə söhbətimiz zamanı bir daha şahidi olduq ki, muxtar respublikamızda hərbçi ailələrinin rahat yaşayışının təmin olunması istiqamətində zəruri tədbirlər görülür. Hər bir hərbçi ailəsi dövlətin qayğısını öz üzərində hiss etməklə xoşbəxt gələcək vəd edən sabaha inamla baxır. Çünki onlara yaradılan şərait bu inama daha çox güc verir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun dediyi kimi: ***"Hər bir zabitin həyatında mənzilin çox böyük önəmi vardır. Çünki ailəsinin rahat yaşayışının təmin olunması zabitin xidmətinin uğurlu olmasında başlıca şərtdir. Dövlətimiz xidməti vəzifələrini layiqincə yerinə yetirən hərbi qulluqçuların əməyini daim yüksək qiymətləndirir. Xidmət zamanı onlar hərtərəfli qayğı ilə əhatə olunur, eyni zamanda 20 il qüsursuz xidmət edənlərə dövlət tərəfindən mənzillər verilir, digər güzəştlər tətbiq olunur. Bütün bunlar isə imkan verir ki, zabitlər öz xidmətlərini uğurla aparaq ordumuzun güclənməsinə töhfə versinlər".***

✍ **Pərviz HACILI**

# Naxçıvan şəhərində təşkil edilən kənd təsərrüfatı məhsullarının satış yarmarkasında bolluq və ucuzluqdur

*Muxtar respublikamızın sürətli sosial-iqtisadi inkişafı davamlı xarakter alıb. Bunun başlıca səbəblərindən biri də bütün sahələrlə yanaşı, kənd təsərrüfatının inkişafına yaradılan münbit şərait, torpaq mülkiyyətçilərinə, ailə təsərrüfatlarına göstərilən dəstəkdir. Bu gün "2016-2020-ci illərdə Naxçıvan Muxtar Respublikasında meyvəçiliyin və tərəvəzçiliyin inkişafı üzrə Dövlət Proqramı"ndan irəli gələn vəzifələr muxtar respublikamızda uğurla icra olunur.*

Mərkəzi bazarda təşkil edilən kənd təsərrüfatı məhsullarının satış yarmarkalarındakı məhsul bolluğu deməyə əsas verir ki, adıçəkilən proqram muxtar respublikada ərzaq təhlükəsizliyinin təmin olunmasına öz töhfəsini verir.

Ötən şənbə günü Naxçıvan şəhərində təşkil edilən yarmarkaya gələnlərin ardı-arası kəsilmirdi. Hiss olunurdu ki, sakinlər mütəmadi olaraq keçirilən belə tədbirlərdən xeyli razıdırlar. Bunu yarmarkaya üz tutanların çöhrələrindən də duymaq çətin deyildi. Çünki insanlar keyfiyyəti ilə seçilən yerli məhsulları buradan ucuz qiymətə ala bilirdilər. Yarmarkaya gəlişimiz səhər saatlarına təsadüf etsə də, burada sıxlıq müşahidə edirdik. Biz də həm ziyarət, həm ticarət, – deyib satıcı və alıcılarla həmsöhbət olduq.

Şərur rayonunun Danyeri kənd sakini, ailə təsərrüfatı sahibi Cəbrail Abışovun dedikləri: – Yarmarkaya məhsul gətirən torpaq mülkiyyətçilərinə hərtərəfli şərait yaradılıb. Buradakı səliqə-sahman da satıcı və alıcıların ürəyincədir. Yarmarkada məhsullar bazar qiymətindən 15-20 faiz ucuz təklif olunur. Alıcılar mövsümi meyvələrə daha çox maraq göstərirlər. Mən də həyətyanı sahəmdəki və pay torpağımda yetişdirdiyim meyvə məhsullarını yarmarkaya gətirmişəm. Alma, ərik, gilas, alçanın bu mövsümdə alıcısı başının üstündədir. Səhərdən indiyə







kimi gətirdiyim məhsulun, demək olar ki, yarısından çoxunu satmışam. Bizim üçün yaradılan şəraitə, göstərilən qayğıya görə minnətdarlığımı bildirirəm.

Yarmarkada yerli tərəvəz məhsulları ilə yanaşı, qida kimi istifadə olunan yabanı bitkilər, süfrələrimizin gündəlik bəzəyinə çevrilmiş göyərtilər də çoxluq təşkil edirdi. Naxçıvan şəhər sakini Gülsüm İsmayılova öz həyətyanı sahəsində yetişdirdiyi göyərtiləri, Şahbuz rayon sakini Nəriman Namazov isə dağlardan topladığı yabanı bitkiləri satışa çıxarmışdı. Onlar deyirlər ki, alıcılar daha çox məzrə, nanə, reyhan, şüyüd, keşniş alır, onlardan bəzilərini qurudaraq qış üçün də tədarük edirlər. Satıcılar onu da vurğuladılar ki, diyarımızda təsərrüfatçılar üçün hər cür şərait yaradılıb, kim istəyir həyətində, pay torpağında istixana qurur, qış fəslində də bazar və dükanlarımızda təzə göyərti bol olur. Amma elə yeməklər var ki, onlara qurudulmuş göyərti qatanda daha dadlı olur. Bəzən əlimiz bazara çatmayanda belə göyərtiyə ehtiyac yaranır. Ona görə də hər bir qadın öz mətbəxində cürbəcür göyərti qurusu saxlamağa üstünlük verir. Alıcıların çoxu yurdumuzun səfalı havasında, təmiz torpağında bitən bu bitkiləri alıb uzaqda yaşayan qohum-əqrəbasına da sovqat göndərir.

Nəriman Namazov Şahbuz rayonunun adla deyilən bitkisi – uşqun haqqında danışır:

– Muxtar respublikanın dağ və dağətəyi ərazilərindən toplanan uşqun min bir dərdin dərmanıdır. Naxçıvan mətbəxində ondan geniş istifadə olunur. Rayonumuzda bu bitki Kükü, Aşağı Qışlaq və Yuxarı Qışlaq kəndlərinin qumsal dağ yamaclarında bitir. Onu da deyim ki, əgər il yağıntılı keçərsə, uşqun bol olar. Çünki yağıntı bu bitkiyə, necə deyərlər, can verir. Dağlardan-düzlərdən yığdığımız həmin bitkini həm öz ailələrimiz üçün tədarük edir, eyni zamanda bazarlara çıxarmaqla alıcılara da təklif edirik.

Yarmarkada alıcılarla da görüşdük. Naxçıvan şəhər sakini Elmira Həsənovanın dediklərindən: – Bu günlərdə biz qadınları düşündürən əsas məsələ qış üçün hazırlıq görmək, yetişən meyvə-tərəvəzlərdən müxtəlif yeməklər, mürəbbələr, kompotlar hazırlayıb qablaşdırmaq, fəslə uyğun göyərtilər alıb qurutmaqdır. Kəndli öz həyət-bacasında əkib-becərdiyi meyvə-tərəvəzdən özünə lazım olanını qış azuqəsi edir, qalanını da gətirib yarmarkada satır. Bu da həm onların ailə büdcəsinə kömək edir, həm də biz şəhər sakinlərinin ehtiyacını ödəyir. Dövlətimiz süfrələrimizin daha zəngin, daha rəngarəng olması üçün məqsədyönlü tədbirlər həyata keçirir. Bu tədbirlərdən biri də belə yarmarkaların təşkil edilməsidir. Bu, çox gözəl haldır.

Ruzi-bərəkətli əkin sahələrində artıq digər məhsullar da yetişməkdədir. Önümüzdəki həftələrdə keçiriləcək satış yarmarkalarında şəhər sakinlərinə həmin məhsullar da təqdim olunacaqdır. Alıcıların və satıcıların da qeyd etdikləri kimi, belə tədbirlər torpaq mülkiyyətçilərinin min bir zəhmətlə yetişdirdikləri məhsulları rahatlıqla satmalarına və ailə büdcələrinin gəlirlərini artırmalarına şərait yaratmaqla yanaşı, daxili bazarı yerli məhsullarla da təmin edir. Yerli məhsullarımız isə həm dad-tamı, həm keyfiyyəti, həm də qiyməti ilə sakinləri daim cəlb edir.

Qeyd edək ki, budəfəki kənd təsərrüfatı məhsullarının satış yarmarkasına sahibkarlar, torpaq mülkiyyətçiləri və istehsal müəssisələri tərəfindən, ümumilikdə, 66 adda, müxtəlif çeşiddə məhsul satışa çıxarılmışdır.

✍ **Ramiyyə ƏKBƏROVA**

# Aqrar sahə inkişaf etdirilir

Naxçıvan Muxtar Respublikası Kənd Təsərrüfatı Nazirliyinin əməkdaşlarının iştirakı ilə may ayında muxtar respublikanın şəhər və rayonlarında ayrı-ayrı ailə təsərrüfatı üzvləri, torpaq mülkiyyətçiləri və sahibkarların iştirakı ilə tarla-seminar müşavirələri keçirilib. Müşavirələrdə kartof, soğan, qarğıdalı əkinlərində yeni texnoloji avadanlıq və aqreqatlardan istifadənin üstünlüklərindən danışılıb, meyvə-tərəvəz və bostançılıqla məşğul olan torpaq sahibkarlarına əkinlərə aqrotexniki qaydalara uyğun qulluq edilməsi haqqında məlumatlar verilib. Nazirliyin mütəxəssisləri tərəfindən hazırlanan buklet informasiya kitabçaları tədbir iştirakçılarına paylanılıb. Taxıl biçininin mütəşəkkil keçirilməsi ilə əlaqədar biçində iştirak edən kombayn sahibləri ilə söhbətlər aparılıb, müvafiq köməkliklər göstərilib.

Ötən ay 46 hektar üzümlük, 24 hektar bostan, 94 hektar qarğıdalı, 38 hektar tərəvəz sahələrində kompleks becərmə tədbirlərinin aparılmasına, 3265 hektar taxıl sahəsində yabanı turpəng və digər alaq otlarına və 1150 hektar yonca sahəsində fitonomus uzunburununa qarşı kimyəvi mübarizə tədbirlərinin həyata keçirilməsinə dair hüquqi və fiziki şəxslərə tövsiyələr verilib.

İri arıçılıq təsərrüfatları sahibkarlarının iştirakı ilə müşavirələr keçirilib, arıların mərhələli şəkildə köçürülməsinin əhəmiyyəti onların diqqətinə çatdırılıb. Həmçinin mal-qaranın cins tərkibinin yaxşılaşdırılması, qoyunçuluqda yun qırxımının mütəşəkkil keçirilməsi və yay otlaqlarından səmərəli istifadə edilməsi istiqamətində maarifləndirmə tədbirləri davam etdirilib.

***Naxçıvan Muxtar Respublikası Kənd Təsərrüfatı Nazirliyinin mətbuat xidməti***




*Türkiyənin "Skylife" turizm jurnalında Naxçıvan haqqında məqalə dərc edilib. Jurnal ildə 70 milyon insan tərəfindən oxunur. "Mədəniyyətlər beşiyi Naxçıvan" sərlövhəli məqalənin müəllifi Büşranur Kocaerdir. Jurnalda yerləşdirilən fotoşəkillər isə Məsudə Bülbülə məxsusdur.*

*Naxçıvan xarici mediada*

# Mədəniyyətlər beşiyi NAXÇIVAN

Budəfəki səfərim Yer üzündə varlığı Nuh Peyğəmbər dövründən başlayan və Böyük İpək Yolunun üzərində yerləşən, Övliya Çələbinin "Səyahətnamə"sində "Nəqşi-cahan" adlandırdığı qədim Naxçıvan şəhərinədir.

Yanımda oturanların "Naxçıvana düşdük" sözləri ilə yuxudan ayıldım və bir az narahatlıq keçirdim. Təyyarənin təkərləri yerə toxunduğu an isə rahatlayaraq gülümsədim. Azərbaycan dili ilə ana dilim türkçə arasında bir çox oxşar və fərqli cəhətlər vardır. Məsələn, "düşmək" "enmək" mənasında işlədilir. Səfərimin başında məni gülümsədən, içimi fərəhlədən Naxçıvan şəhərində daha nələrlə qarşılaşacağımı düşünməyə başladım.

Kiçik Qafqaz dağlarının Zəngəzur və Dərələyəz silsilələri ilə əhatə olunmuş Naxçıvan Muxtar Respublikasının eyniadlı pay-



taxtı İranla sərhəd təşkil edən Araz çayına qədər uzanan yamyaşıl vadidə yerləşir.

Əşyalarımı şəhər mərkəzindəki otelə qoyduqdan sonra, burada verilən tövsiyə üzrə, ilk işim Bayraq Meydanına gedərək Naxçıvan şəhərini ən yüksək nöqtədən seyr etmək oldu. İnsanların istirahət üçün də üz tutduqları bu meydanda həm şəhəri izləyir, həm də Azərbaycan bayrağı haqqında məlumat alırdım. Naxçıvana gələrkən buranın Türkiyə ilə sərhəd olduğunu öyrənmişdim. Uzaqlarda görünən Ağrı dağının qarlı zirvəsi məni bu məlumatın doğruluğuna inandırdı. Beynimdə Həzrəti Nuhun gəmisinin Naxçıvanda iddia edildiyi kimi Haçadağınmı, yoxsa Ağrı dağınınmı zirvəsinə toxunduğu sualları ilə şəhər mərkəzinə yol aldım.



Marşrutumu 5 min əvvəl qurulmuş şəhərin tarixini öyrənmək üzrə seçdim. Qədim ticarət yollarının üzərində yerləşən və sanki mədəni mozaikanı xatırladan Naxçıvan şəhərinin 24 saat böyük diqqətlə təmizləndiyi abad küçələrindən keçərək Cümə məscidinə çatıram. XVIII əsrdə inşa edilmiş bu məscid Naxçıvan memarlığının xüsusiyyətlərini özündə yaşadır. Səlcuqlu memarlıq tərzini də xatırladan məscidin pəncərə vitrajlarından, fasadlardakı qırmızı kərpiclərdən gözlərimi ayıra bilmirdim. Məscidin həyətindəki ağacların kölgəsində oturub bu coğrafiyadan gəlib keçmiş bir-birindən dəyərli mədəniyyətlər barədə düşünür və xəyallara dalırdım.

Naxçıvan şəhərindəki növbəti ziyarət etdiyim yer məni daha qədimlərə apardı. Cümə məscidi ilə eyni küçədə yerləşən Möminə xatın türbəsi XII əsrdə memar Əcəmi Naxçıvani tərəfindən Azərbaycan Atabəylər dövlətinin hökmdarı Şəmsəddin Eldənizin xanımı Möminə xatının şərəfinə tikilib. Böyük ustalıqla işlənilmiş türbənin fasadındakı həndəsi kompozisiyalara, naxışlara, kufi xətti ilə yazılmış "Yasin" surəsinə heyranlıqla baxırdım. O dövrün şərtləri daxilində qadın adına belə gözəl bir abidənin ucaldılması məni qürurlandırdı.

Ətrafın gözəlliyini seyr edə-edə türbənin yaxınlığındakı Xan sarayına daxil oldum. XX əsrin əvvəllərinə qədər istifadə olunmuş Naxçıvan xanlarına aid bu tarixi saray hazırda muzey kimi fəaliyyət göstərir. Araz çayına mənzərəsi açılan ikimərtəbəli bina həm iqamətgah, həm də dövlət işləri üçün istifadə olunmuşdur. Muzeydə o dövr həyat tərzinə, məişətinə və mədəniyyətinə aid əşyalardan ibarət 300-dən artıq eksponat sərgilənir. Fasadındakı qırmızı kərpiclərin sadə görüntü yaratmasına baxmayaraq, bina daxildən çox möhtəşəmdir. Aynalı salonun pəncərələrindəki rəngarəng vitrajların işıq oyunları altında insan sarayın keçmişinə xəyalən səyahət edir. Bura Günəş batarkən təkrar gəlməyi qərara alıb yaxınlıqdakı "Milli Yeməklər"ə yollandım.

Naxçıvan mətbəxində ətdən hazırlanan yeməklərə daha çox üstünlük verilir. "Piti", "bozpört", "borş" kimi Naxçıvan mətbəx nümunələrinin təklif edildiyi məkan həm cibimə, həm də damaq dadıma uyğun idi.

Topladığım enerji ilə Naxçıvan şəhərindəki tarix turuma davam edirəm. Heydər Əliyev prospektindəki Xalça Muzeyinin geniş ekspozisiya salonunda sərgilənən nadir sənət əsərlərinin – müxtəlifölçülü, min bir çeşidli xalçaların, xalçaçılıq və toxuculuq ləvazimatlarının sehrinə düşdüm. Xalçalar üzərindəki dəvə fiqurlarının bərəkəti və bolluğu, Azərbaycan türklərinə xas butaların isə su damlalarını xarakterizə etdiyini öyrəndikdə naxçıvanlıların mədəniyyətə, sənətə



verdikləri dəyərə bir daha heyran qaldım. Muzey binasındakı hədiyyəlik əşyalar mağazasında dostlarıma xatirə hədiyyələri aldıqdan sonra Naxçıvan şəhərindəki ilk günümü Naxçıvanqalada tamamlamaq qərarına gəldim.

Son illər yenidən bərpa olunmuş qalanın yaxınlığındakı Nuh Peyğəmbər türbəsinin gün batımı mənzərəsi daha füsunkardır. Adətən, gənclər toy, nişan şəkilləri çəkdirmək üçün bura gəlirlər. Gənclərin söylədiyinə görə, Naxçıvanqalada il ərzində müxtəlif festivallar keçirilir. Naxçıvanlılar bu festi-



vallarda milli rəqslərini və musiqilərini təqdim edirlər. Bir anlıq milli geyimli gənclərin Azərbaycan xalqının tarixini, mədəniyyətini yaşadan rəqsləri ifa etməsi gözlərimiz önündə canlanır.

Növbəti gün şəhərin gündəlik həyatı ilə tanış olmaq üçün üz tuturuq Naxçıvan bazarına. Rəngarəng piştaxtalarda nələr yoxdur ki?! Həftənin hər günü açıq olan bazarda ədviyyatlardan tutmuş çərəzlərə, meyvətərəvəzlərdən yabanı bitkilərə qədər nə istəsən var. İnsanların qonaqpərvərliyi bazara da yansıyıb. Atasına kömək edən Orxanın piştaxtasında buraların məşhur alanasının dadına baxdım. Həyatında yetişdirdiyi göyərtiləri satan xaladan keşniş və şüyüdün



Naxçıvan mətbəxinin əvəzolunmazı olduğunu öyrəndim. Özümü bir az daha buralı kimi hiss etdiyim üçün elə Naxçıvanda deyildiyi kimi, "Yorulmayasınız", – deyərək bazardan ayrıldım.

Naxçıvanlılar müasir inkişafa mühüm əhəmiyyət verməklə yanaşı, həm də adət-ənənələrinə son dərəcə bağlıdırlar. Səfərim boyunca mənə bələdçilik edən Ruslan və Məmmədin müşayiətilə Əshabi-Kəhfə yollanıram. Rəvayətə görə, vaxtilə yeddi kimsənənin yatdığı bu mağaradakı damcıxanada niyyət edilir. Əgər üzərinizə su damcısı düşərsə, demək, niyyətiniz qəbul olunur. Şəhər mərkəzindən 10-12 manata gedə biləcəyiniz bu ziyarətgahda yaz ayları ətrafa yayılan iydə ətri, bir də təklif edilən ot çayları başqa aləmdir.

Yerləşdiyi coğrafi mövqe baxımından



daim diqqət mərkəzində olan Naxçıvan müasir dövrdə sahib olduğu təbii sərvətləri ilə həm də şəfa mərkəzinə çevrilmişdir. Şəhər mərkəzindən 10-12 kilometr uzaqlıqda yerləşən Duzdağın 110 metr içərisindəki mağaralarda udduğum duzlu havanın təsiri bunu bir daha təsdiq edir. 1979-cu ildən fəaliyyət göstərən Duzdağ Fizioterapiya Mərkəzində hər il dünyanın fərqli ölkələrindən gələn minlərlə astma və bronxit xəstəliklərindən əziyyət çəkən insan şəfa tapır. Güləruz heyəti ilə yaxınlıqda yerləşən "Duzdağ" oteli isə xəstələrin qalması üçün ideal məkandır.

## Şənbə konsertlərinə start verilib



*Ötən şənbə Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyinin təşkilatçılığı ilə Naxçıvan şəhərindəki "Görüş yeri" kafesi qarşısında konsert təşkil edilib.*

Konsertin aparıcısı bildirib ki, isti yay günlərində əhalinin istirahətinin daha səmərəli təşkili məqsədilə Mədəniyyət Nazirliyi bu gündən başlayaraq hər həftənin şənbə günü şəhərimizin park və meydanlarında musiqi kollektivlərinin konsertlərini təşkil edəcək. Bugünkü konsertdə Naxçıvan Dövlət Filarmoniyasının Mahnı və Rəqs Ansamblı öz rəngarəng repertuarını nümayiş etdirəcək.

Qeyd olunub ki, ansamblın bədii rəhbəri Azərbaycan Respublikasının Əməkdar artisti Zeynalabdin Babayev, baletmeyster Azərbaycan Respublikasının Əməkdar mədəniyyət işçisi Tamerlan Bağırovdur.

Naxçıvan Dövlət Filarmoniyasının Mahnı və Rəqs Ansamblı geniş konsert proqramı ilə tədbir iştirakçılarına xoş ovqat bəxş edib. Ansamblın solistləri Nərmin Hüseynova, Samiddin Vəliyev, Namiq Vəliyev, Ruhiyyə Hüseynova və digərlərinin ifalarında Azərbaycan xalq mahnıları və bəstəkarlarımızın populyar əsərləri səslənib. Solistlərin ifaları alqışlarla qarşılanıb.

Rəqs kollektivinin ifa etdiyi "İnnabı", "Naz eləmə", "Tərəkəmə" və başqa rəqslər tamaşaçılarda xoş əhval-ruhiyyə yaradıb.

Naxçıvan Muxtar Respublikasının Əməkdar artistləri Xatirə Səfərova və Hünər Əliyevin ifalarında səslənən xalq mahnıları kollektivin repertuar zənginliyini göstərirdi.

Konsert rəqs kollektivinin ifasında yallı ilə başa çatıb.

Naxçıvan şəhərindəki "Görüş yeri" kafesi qarşısında ilk dəfə keçirilən konsert proqramı iki saatdan artıq davam edib.

**Əli RZAYEV**

## Cəzaçəkmə müəssisəsində profilaktik tibbi müayinələr aparılıb

*Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin həkim briqadası ötən şənbə Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyi Penitensiar Xidmətinin Qarışıq Rejimli Cəzaçəkmə Müəssisəsində məhkumları profilaktik müayinələrdən keçirib.*

Müəssisənin tibbi sanitar hissəsinin həkim və orta tibb işçilərinin də fəal iştirakı ilə həkim briqadası tərəfindən gün ərzində 62 nəfərdən ümumi, həmçinin hepatit B, C, QİÇS və digər yoluxucu xəstəliklərin müəyyən edilməsi üçün qan analizləri götürülüb. Sonra yüksəkixtisaslı həkimlər tərəfindən müayinələr aparılıb. 24 nəfər USM, 12 kardioloji xəstə EKQ müayinəsindən keçirilib. 24 nevroloji, 18 uroloji, 20 terapevtik xəstə tibbi müayinələrlə əhatə olunub.

Profilaktik tibbi müayinələr Naxçıvan Muxtar Respublikası Ağciyər Xəstəlikləri Dispanseri tərəfindən davam etdirilərək 79 məhkum ftiziatr müayinələrindən keçirilib. Ağır xəstəlik halları müşahidə olunmayıb. Aşkarlanan xəstəliklərin müalicəsi müvafiq səhiyyə müəssisələrində həyata keçirilir.

Bununla yanaşı, yüksəkixtisaslı həkim briqadaları tərəfindən də tibbi müayinələr aparılır, əlaqədar təyinatlar məhkumların tibbi kitabçalarına qeyd olunur. Onların dərin tibbi müayinələrə cəlb edilməsi məsləhət görülür, həmçinin mövsümi xəstəliklər barədə səhiyyə maarifi işləri aparılır.

***Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin mətbuat xidməti***

## Qəbul imtahanının ikinci mərhələsi keçirilib

*Dövlət İmtahan Mərkəzi iyunun 23-də 2019-2020-ci tədris ili üçün Azərbaycan Respublikasının ali təhsil müəssisələrinə qəbul olmaq istəyən abituriyentlər üçün I və IV ixtisas qrupları üzrə qəbul imtahanı keçirib.*

İmtahan keçirildiyi bütün bölgələrdə eyni vaxtda – saat $11^{00}$-da başlayıb və 3 saat davam edib. Abituriyentlərə bilik və bacarıqlarını yoxlamaq məqsədilə I qrupda riyaziyyat, fizika və kimya, IV qrupda isə biologiya, kimya və fizika fənləri üzrə, hər fənn üzrə 30 test tapşırığı, ümumilikdə, 90 tapşırıq təqdim olunub. Bu imtahanda abituriyentlərin toplaya biləcəyi maksimal ümumi bal 400-dür.

Məlumat üçün bildirək ki, imtahanda 24 min 28 abituriyent iştirak edib. Onlardan 19 min 878 abituriyent I qrup üzrə, 4150 abituriyent isə IV qrup üzrə imtahan verib.

İmtahandan dərhal sonra – saat $16^{00}$-da Dövlət İmtahan Mərkəzinin "Facebook" səhifəsi və "Youtube" kanalı vasitəsilə canlı yayım edilib və mərkəzin məsul əməkdaşları, ekspertlər tərəfindən imtahanda istifadə olunmuş sualların düzgün cavabları və test tapşırıqları ilə bağlı geniş izahat verilib.

Naxçıvan Muxtar Respublikasında imtahan 14 nömrəli tam orta məktəbdə keçirilib. 599 abituriyentin iştirak etdiyi imtahanın idarə olunması üçün 58 nəzarətçi və 5 imtahan rəhbəri cəlb edilib.

İmtahan nəticələrinin yaxın 2 həftə ərzində elan olunması nəzərdə tutulur.

**Güntac ŞAHMƏMMƏDLİ**

# Ağırdır yoldaş itkisi...

Qəzetimizin kollektivi ilə bir əzizimizin yaxınının vida mərasimində eşitdik bu acı xəbəri. Uzun illər birgə çalışdığımız Ruqiyyə Əliyevanın – öz işinə, öz yoldaşlarına, doğma kollektivə sədaqətli bir insanın dünyasını dəyişdiyi, əbədiyyətə qovuşduğu xəbəri içimizi göynətdi, yaman göynətdi... Hələ çox göynədəcək, hər korrektor otağına girəndə, iş yoldaşlarımızın ad günlərində, toy mərasimlərində, digər tədbirlərdə onu görməyəndə bu ağır itki ilə üzüzə qalmaqdan qaça bilməyəcəyik. Onu da düşünürəm ki, bu itki bizi belə göynədirsə, onun qohuməqrəbası buna – Ruqiyyə xanımın yoxluğuna necə dözür?



...2002-ci ilin əvvəllərində "Şərq qapısı"nda işə başlayarkən Ruqiyyə Əliyevanın öz işinə necə tələbkar olduğunu gördüm. Tələbkar olduğu qədər də iş yoldaşlarına qarşı mehriban və səmimi bir insan idi. Baş korrektor işlədiyi dövr ərzində qəzetdə yetişən korrektorların hamısının müəllimi o olub desəm, – heç də yanılmaram. Hələ 50 yaşını qeyd etdiyimiz tədbirdə bunu gənc korrektorlar etiraf etdilər. Onun savadlı korrektor olmasının ifadəsi idi ki, öz kitablarını çapa hazırlayan müəlliflər məhz Ruqiyyə xanımdan onların kitablarının korrektoru olmasını xahiş edirdilər. O da bu işi təmənnasız olaraq yerinə yetirirdi. Elə bu sətirlərin müəllifinin 2004-cü ildə çapdan çıxmış "Şam ömrünün nağılı" adlı kitabına da Ruqiyyə xanım "əl gəzdirmişdi".

Tam səmimiyyətlə onu da deyim ki, Ruqiyyə Əliyeva təkcə korrektə işi ilə məşğul olmurdu, o həm də öhdəsinə götürdüyü yazıları redaktə edirdi. Uzun illər "Şərq qapısı"nın baş korrektoru kimi qüsursuz fəaliyyət göstərən Ruqiyyə xanım korrektor yoldaşlarına hər zaman bunu tövsiyə edərdi: "Qəzetin nəşrində baş redaktorla, müxbirlərlə yanaşı, korrektorlar da böyük məsuliyyət daşıyır. Ola bilsin ki, jurnalist hissə qapılıb hər hansı bir səhvə yol versin. Korrektor bunu vaxtında görüb aradan qaldıra bilmədidir. Hər hansı kiçik bir orfoqrafiya səhvi ən mükəmməl bir yazıya xələl gətirə bilər. Buna yol vermək olmaz!"

Ruqiyyə xanımın növbətçi olduğu nömrə əminliklə çapa verilirdi. Hamı bilirdi ki, o, səhifələri dəfələrlə yoxlamamış təhvil verməzdi. Azərbaycan dili və ədəbiyyatı ixtisasını bitirən Ruqiyyə xanım həm də jurnalistlərimizin məmnuniyyətlə razılaşacağı maraqlı fikirlər irəli sürərdi.

Mətbuatla yaxından əlaqəsi olanlar bu işin çətinliyini təsəvvür edə bilərlər. Ruqiyyə xanımın nümunəvi fəaliyyəti isə hələ sovet dönəmində nəticəsiz qalmamışdı. O, dəfələrlə fəxri fərmanlara, mükafatlara layiq görülmüşdü. 2010-cu ildən isə "Azərbaycan Respublikasının Əməkdar mədəniyyət işçisi" fəxri adını daşıyırdı. Bu ada layiq olduğu gün redaksiyada əsl bayram sevinci yaşandı. Bütün əməkdaşlar Ruqiyyə xanıma layiq olduğu adın verilməsini, ümumilikdə, qəzetimizin kollektivinə göstərilən qayğı hesab etdi. Və bütün sonrakı fəaliyyəti boyu şahidi olduq ki, o, bu fəxri adın dəyərini tam məsuliyyəti ilə dərk edərək işinə daha ciddi münasibət göstərirdi.

2017-ci ildə redaksiya kollektivi tərəfindən təntənəli şəkildə təqaüdə yola salınan Ruqiyyə xanım sonralar da tez-tez redaksiyada olur, dəyərli tövsiyələrini korrektor həmkarlarından əsirgəmirdi.

Xeyirxah idi, hamıya yaxşılıq etməyi sevərdi. Çətinliyə düşən hər hansı bir əməkdaşımızın köməyinə çatmağa çalışardı. Buna nail olanda onun sevincini görəydiniz. Bu gün də korrektor yoldaşları onun haqqında xoş xatirələr danışırlar. Elə əməkdaşlarımız da. Ancaq o xatirələr bir deyil, beş deyil. Hamısında da bir insan xarakterinin yaxşılıqla yoğurulmuş izləri özünə yer alıb. Bu gün bu izləri "Şərq qapısı" qəzeti əməkdaşlarının hər birində görmək olar.

…Amansız əcəl daha bir insanı – əziz iş yoldaşımız Ruqiyyə Əliyevanı vaxtsız olaraq aramızdan apardı. Bu gün o, cismən bizimlə deyil, lakin qəlbimizdə həmişə xatırladığımız insanlar arasındadır. Bu mənəvi haqqı o hələ sağlığında qazanıb.

Ömrünü mətbuatda şam kimi əridən bir insan haqqında saatlarla danışmaq, onunla bağlı xatirələri yada salmaq olar. Bircə onu demək kifayət edər ki, o, həmişə onu tanıyanların qəlbində yaşayacaq – səmimiyyəti, xeyirxahlığı ilə. Elə səmimiyyət və xeyirxahlıqla da xatırlanacaq...

Qəbrin nurla dolsun, Ruqiyyə xanım!

"Şərq qapısı" qəzetinin kollektivi adından

✍ **Muxtar MƏMMƏDOV**

# Mədəni-kütləvi tədbirlər davam etdirilir

*Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyi tərəfindən may ayında əlamətdar və tarixi günlərlə bağlı mədəni-kütləvi tədbirlər davam etdirilmiş, konsertlərin təşkili, kino və teatr tamaşalarının nümayişi diqqətdə saxlanılmışdır. Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin anadan olmasının 96-cı ildönümünə həsr edilmiş konsert proqramları təşkil olunmuş, distant dərs və tədbirlər keçirilmişdir.*




May ayında mədəniyyət müəssisələrində Naxçıvan Muxtar Respublikasının yaradılmasının 95 illiyi, Respublika Günü, Xalçaçı Günü, Beynəlxalq Muzeylər Günü, Cəlil Məmmədquluzadənin 150 illiyi, Ərtoğrol Cavidin 100 illiyi, Xalq yazıçısı Hüseyn İbrahimovun 100 illiyi ilə bağlı tədbirlər keçirilmiş, sərgilər açılmışdır. Bu dövrdə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Ali və orta ixtisas təhsili müəssisələrində ixtisasların müvafiq təşkilatlara hamiliyə verilməsinə dair əlavə tədbirlər və innovasiyaların dəstəklənməsi haqqında" 2019-cu il 3 aprel tarixli Sərəncamının icrası ilə bağlı işlər davam etdirilmiş, tələbələr üçün açıq və ustad dərslər keçilmiş, ekskursiyalar təşkil olunmuş, mədəniyyət müəssisələrində təcrübə keçmələrinə şərait yaradılmışdır.

Milli dəyərlərimizin yaşadılması, qorunması və təbliği istiqamətində də işlər davamlı olaraq həyata keçirilmişdir. "Şərur" Xalq Yallı Ansamblı Ukrayna Respublikasının paytaxtı Kiyevdə rəsmi tədbirdə çıxış etmişdir. Ötən ay "Keçmişdən bu günə Naxçıvan yallıları" adlı müsabiqənin seçim turuna start verilmişdir. Şərur yallılarının reyestrə alınması, nota köçürülməsi işləri də davam etdirilmiş, Sədərək rayonunda "Yallı xalqımızın milli birlik rəmzidir" mövzusunda dəyirmi masa keçirilmişdir. Mayın 15-də məşhur norveçli xor şefi və müəllimi Per Oddvar Hildre və Azərbaycanın incəsənət xadimlərinin bir qrupu Naxçıvanda olmuş, muxtar respublikanın xor kollektivlərinin ifalarına baxmış və ustad dərsi keçmişlər. Keçilən ustad dərsdə hamiliyə verilmiş müvafiq ixtisaslar üzrə təhsil alan tələbələr də iştirak etmişlər.

Ötən ay "Muzey günləri" çərçivəsində ekskursiyalar davam etdirilmiş, muzeyləri 18 min 701 əcnəbi vətəndaş olmaqla, ümumilikdə, 60 min 380 tamaşaçı ziyarət etmişdir. Muzey fondlarının zənginləşdirilməsində muxtar respublika sakinləri ilə bərabər, məktəblilər də fəal iştirak etmiş, muzeylərə 510 yeni eksponat daxil olmuşdur. Muzeylərdə 2 distant, 43 açıq dərs keçilmiş, 7 sərgi açılmışdır.

Kitabxanaların fəaliyyəti də diqqətdə saxlanılmış, kitabxana fondlarına 395 adda 806 nüsxə çap məhsulu daxil olmuşdur. Kitabxanalarda yeni oxucu sayı 306, oxucu gəlişi 9 min 815, kitab verilişi 52 min 305 nüsxə olmuşdur. Həmçinin elektron kataloqa 476, şəbəkəyə isə 50 kitab işlənmişdir.

Ötən dövrdə muxtar respublikanın klub müəssisələrində də bir sıra mədəni-kütləvi tədbirlər təşkil olunmuş, Babək rayonunun Şıxmahmud kəndində "Xalq yaradıcılığı günü" keçirilmişdir.

Muxtar respublikanın rayon mərkəzlərində əhalinin asudə vaxtının səmərəli təşkili məqsədilə konsertlər davam etdirilmiş, tamaşa və filmlər nümayiş olunmuşdur. Ay ərzində rayon mədəniyyət saraylarında 7 konsert və 7 tamaşa təşkil edilmişdir. May ayının 20-də start verilən xalq teatrlarının muxtar respublika festivalında Ordubad Rayon Xalq Teatrı "Vəzifə hərisi", Şahbuz Rayon Xalq Teatrı "Məşədi Qulam qiraət öyrənir" tamaşalarını təqdim etmişlər.

***Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyinin mətbuat xidməti***

## Naxçıvan Muxtar Respublikası üzrə 24 iyun 2019-cu il tarixə taxıl biçininin gedişinə dair məlumat

| S/№ | Şəhər və rayonlar | Biçiləcək taxıl sahəsi (hektar) | Biçilən taxıl sahəsi (hektar) | Məhsul istehsalı (ton) | Məhsuldarlıq (sentner) |
|---|---|---|---|---|---|
| 1. | Naxçıvan şəhəri | 1035 | 130 | 362 | 27,8 |
| 2. | Şərur rayonu | 4127 | 75 | 225 | 30,0 |
| 3. | Babək rayonu | 10610 | 2761 | 8288 | 30,0 |
| 4. | Ordubad rayonu | 1685 | 1070 | 3028 | 28,3 |
| 5. | Culfa rayonu | 6553 | 1851 | 5295 | 28,6 |
| 6. | Kəngərli rayonu | 5210 | 1850 | 5404 | 29,2 |
| 7. | Şahbuz rayonu | 1616 | - | - | - |
| 8. | Sədərək rayonu | 2472 | 370 | 1265 | 34,2 |
| **Naxçıvan Muxtar Respublikası üzrə cəmi:** | | **33308** | **8107** | **23867** | **29,4** |

# Gənclərin idmana cəlbi diqqət mərkəzindədir



*Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi tərəfindən may ayında gənclərin asudə vaxtlarının səmərəli təşkili və idmanın kütləviliyinə nail olunması istiqamətində ardıcıl tədbirlər görülmüşdür.*

Bakı şəhərində keçirilən "Poliqon" Strateji İntellekt Oyunu üzrə II Universiadanın final mərhələsində, "Xəmsə" milli intellektual oyununun XI Azərbaycan çempionatında və "Şahin" hərbi-idman oyununun respublika finalında Naxçıvan Muxtar Respublikasını təmsil edən komandaların iştirakı təmin edilmişdir. Həmçinin may ayında gənc dövlət qulluqçuları arasında "Xəmsə" milli intellektual oyunu üzrə "Heydər Əliyev kuboku"nun yarımfinal və final mərhələləri, "İntellektual Oyunlar Olimpiadası"nın muxtar respublika və Ordubad rayon birinciliklərі təşkil edilmiş, Naxçıvan Musiqi Kollecində "Mən də proqramçı olmaq istəyirəm" təlimi keçirilmişdir.

Muxtar respublikanın turizm potensialının təbliğ olunması məqsədilə "Naxçıvanı tanıyaq" devizi altında tədbirlər davam etdirilmiş, Bakı şəhərində yerləşən 20 saylı məktəb-liseyin bir qrup müəllim və şagird heyətinin Naxçıvan şəhərinə ekskursiyası təşkil olunmuşdur. Həmçinin Azərbaycanın digər bölgələrindən olan və muxtar respublikada təhsil alan tələbələrin iştirakı ilə "Tarixə ekskursiya" layihəsi həyata keçirilmişdir.

May ayında muxtar respublikamız bir neçə beynəlxalq idman tədbirinə ev sahibliyi etmişdir. Belə ki, bu dövrdə Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin anadan olmasının 96-cı ildönümünə həsr edilmiş "Naxçıvan – 2019" Beynəlxalq Şahmat Festivalı, "Naxçıvan-Open" karate-do üzrə beynəlxalq turnir, cüdo üzrə beynəlxalq turnir keçirilmiş, Türkiyə, Azərbaycan və Naxçıvan alpinistlərinin iştirakı ilə Haçadağa yürüş təşkil olunmuşdur. Keçirilən beynəlxalq tədbirlərlə yanaşı, həmçinin "Heydər Əliyev kuboku" uğrunda yeniyetmə və gənclər arasında boks, hüquq-mühafizə orqanlarının əməkdaşları arasında peyntbol, yeniyetmələr arasında sərbəst güləş, sağlamlıq imkanları məhdud şəxslər arasında futzal, ali və orta ixtisas təhsili müəssisələrinin tələbələri arasında kross qaçışı, yeniyetmə və gənclər arasında basketbol, kişilər arasında voleybol və futbol üzrə Naxçıvan Muxtar Respublika turnirləri təşkil olunmuş, futbol üzrə Azərbaycan kubokunun final oyunu keçirilmişdir. İdmançılarımız Azərbaycan birinciliklərində 55, beynəlxalq turnirlərdə 57, dünya çempionatında 2 medal olmaqla, ümumilikdə, 114 medal qazanmışlar.

***Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin mətbuat xidməti***

# Şahmatçımız beynəlxalq turnirdə uğur qazanıb



*Türkiyənin paytaxtı Ankara şəhərində "IV Beynəlxalq Başkənt Open – 2019" ənənəvi şahmat turniri keçirilib.*

Türkiyə Şahmat Federasiyası və Başkənt Universitetinin birgə təşkil etdikləri turnirdə 14 ölkənin 700-ə yaxın zəka sahibi qüvvəsini sınayıb. Altı gün davam edən beynəlxalq turnirdə Naxçıvan Muxtar Respublikası Şahmat Federasiyasının şahmatçısı Nəsrin Babayeva da iştirak edib. O, 94 zəka sahibinin mübarizə apardığı 14 yaş qrupunda 9 görüşdən 7,5 xal toplayıb və beynəlxalq turniri ikinci pillədə başa vurub. Eyni zamanda idmançımız qızlar arasında ən yaxşı nəticəni göstərərək birinci olub.

Sonda şahmatçımız təşkilatçılar tərəfindən mükafatlandırılıb.

✍ **Ceyhun MƏMMƏDOV**

***Bildiriş***

"Buğda Məhsulları" Məhdud Məsuliyyətli Cəmiyyətinin adı dəyişdirilərək "Gəmiqaya Taxıl Məhsulları" Məhdud Məsuliyyətli Cəmiyyətinə çevrilmişdir.

* * *

"Gəmiqaya Bərəkət Qida Məhsulları" Məhdud Məsuliyyətli Cəmiyyətinin adı dəyişdirilərək "Gəmiqaya Qida Məhsulları" Məhdud Məsuliyyətli Cəmiyyətinə çevrilmişdir.

ŞƏRQ qapısı
Baş redaktor:
MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Nail Əsgərov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1495. Sifariş № 424